**Xalq qəzeti.**-2019.-14 aprel.-№80.-S.1-2.

# Müstəqil Azərbaycanın İlham Əliyev zirvələri

**İsa Həbibbəyli,**
AMEA-nın vitse-prezidenti, Milli Məclisin Elm və təhsil komitəsinin sədri, akademik

***Bu gün Azərbaycan tam mənada müstəqil siyasət aparır, heç kimdən asılı deyil, heç bir başqa ölkədən asılı deyil və öz siyasətini yalnız və yalnız Azərbaycan xalqı naminə aparır. Əminəm ki, Azərbaycanın dövlət müstəqilliyinin daha da güclənməsinə yönəlmiş bu siyasət Azərbaycan xalqının maraqlarına tam cavab verir.***

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Müstəqil Azərbaycan dövləti xalqımızın tarixi şansı, ölkəmizin xoşbəxt taleyi ilə üzvi surətdə bağlı olan mühüm tarixi hadisədir. Ötən il aprelin 11-də keçirilən seçkilərdə əvvəlki 15 ildə ölkəmizi möhtəşəm uğurlara qovuşdurmuş dövlət başçısı İlham Əliyevin növbəti 7 illik müddətə Prezident seçilməsi xalqımızın dövlət müstəqilliyinin dönməzliyinə sadiqliyinin, öz rəhbərinə dərin inamının növbəti təsdiqi oldu.

Dövlət müstəqilliyimizin tarixinə bu hadisə prizmasından baxanda bir daha aydın görünür ki, Azərbaycan Respublikası ötən 27 il ərzində dərin və hərtərəfli böhrandan qlobal dəyişikliklərə və böyük inkişafa doğru məsuliyyətli və şərəfli yol keçmişdir. Bir daha yəqin edirik ki, görkəmli siyasətçi və dövlət -xadimi Heydər Əliyevin 1993-cü ilin böhranlı aylarında gerçəkləşdirdiyi xilaskarlıq missiyası müstəqillik aktı ilə, sadəcə, elan olunmuş yeni suveren respublikanı qoruyub saxlamaq və möhkəmləndirmək, sonrakı böyük gələcəyin zəruri təməllərini yaratmaq baxımından ölkənin taleyində necə önəmli rol oynamışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev son 16 ildə öz ulu sələfi, ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi böyük strateji hədəfləri uğurla fəth edərək müstəqil dövlətimizi uca zirvələrə çatdırmışdır. Azərbaycanda cəmiyyət həyatının bütün sahələri üzrə qazanılmış böyük nailiyyətlər ölkəmizin müstəqillik dövrü inkişafının İlham Əliyev zirvələri olaraq xalqımızı daim yeni zirvələrə doğru istiqamətləndirir.

Siyasi hakimiyyətə gəldiyi -2003-cü il həm müstəqil Azərbaycan dövlətinin, həm də Prezident İlham Əliyevin həyatında məsuliyyətli bir dövr idi. Bir tərəfdən, hakimiyyətdə dünya şöhrətli dövlət xadimi Heydər Əliyevin qazandığı böyük nüfuz qorunub saxlanmalı, digər tərəfdən isə Azərbaycanı bütün sahələr üzrə inkişaf etdirmək vəzifəsi həyata keçirilməli və beynəlxalq aləmdə mövqelər daha da möhkəmləndirilməli idi. Xüsusən, ulu öndər Heydər Əliyevin Azərbaycan Respublikasının sükanını etibar etdiyi cavan Prezident haqqındakı "Mən ona özüm qədər inanıram” bəyanatı İlham Əliyevin məsuliyyətini daha da artırmışdır.

Ötən 16 ilin təcrübəsi göstərdi ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev böyük sınaqlardan çıxmış, xalqın ürəkdən inandığı və dəstəklədiyi əbədi lideri Heydər Əliyev yolunu özünün fəaliyyətinin əsas strategiyası kimi qəbul etmək, siyasi hakimiyyətdə varisliyi diqqət mərkəzinə, ön cəbhəyə çəkmək və siyasi kursu yaradıcı şəkildə davam etdirməklə cəmiyyətin, demək olar ki, bütün təbəqələrinin yüksək etimadını qazanmışdır.

Atılmış ilk addımlar Prezident İlham Əliyevin özünəqədərki dövrdə ölkə üzrə aparılmış islahatların yaradıcı şəkildə davam etdirilməsi, başlanmış bütün işlərin, icra proseslərində olan mühüm layihələrin uğurla həyata keçirilməsi və tamamlanması istiqamətindəki düşünülmüş və qətiyyətli addımlarının dəstəklənməsi demək idi. Yəni Heydər Əliyevin ən layiqli siyasi varisi İlham Əliyevin simasında müstəqil Azərbaycan dövlətini haralara aparıb çıxaracağı əvvəlcədən bilinməyən gözqamaşdırıcı eksperimentlər yolunu deyil, zamanın imtahanlarından uğurla keçmiş inkişaf yolunu yeni tarixi proseslərə uyğun olaraq davam etdirmək strategiyasını seçməklə sonrakı proseslərdə davamlılığı və hətta yüksəlişi təmin etməyə nail olmuşdur. Azərbaycanda inkişafın yeni mərhələsi keçilmiş böyük yolun imkanlarından və riskli eksperimentlərdən yox, xalqın və ölkənin çətinliklər bahasına gəlib çatdığı nöqtədən başlamışdır.

Azərbaycan Respublikasının dövlət iyerarxiyasındakı siyasi varislik və yaradıcı yanaşma ölkənin sonrakı inkişafının möhkəm əsaslarına, hərəkətverici qüvvəsinə çevrilmişdir. Postsovet məkanında ayrı-ayrı ölkələrdə-- Vladimir Putinə qədərki Rusiyada və hələ də yeni liderlər sorağında axtarışlar aparmaqda davam edən Ukraynadakı demokratiya oyunlarının həmin ölkələri hansı çətinliklər və gərginliklər qarşısında qoyduğunu göz önündən keçirməklə, Prezident İlham Əliyevin tutduğu siyasi varislik yolunun nə qədər düşünülmüş və uzaqgörən bir mövqe olduğunu aydın surətdə dərk etmək mümkündür. Məhz həmin vahid strategiyanın nəticəsində, ilk növbədə, Azərbaycan Respublikasında əvvəlcədən başlanılmış böyük layihələr məqsədyönlü şəkildə davam etdirilərək tamamlanmışdır.

"Əsrin müqaviləsi" kimi dünyaya səs salmış beynəlxalq layihənin işığında Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinin uğurla başa çatdırılması, istifadəyə verilməsi müstəqil Azərbaycan dövlətinin gələcək taleyində müstəsna dərəcədə mühüm rol oynamışdır. Bundan başqa, ölkə miqyasında başlanmış torpaq islahatlarının məqsədyönlü şəkildə davam etdirilərək tamamlanması və respublikada bazar iqtisadiyyatına əsaslanan yeni idarəetmə və təsərrüfat münasibətlərinin formalaşması da xalqımızı və ölkəmizi inkişafın böyük magistrallarına çıxarmağa uğurla xidmət etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu mühüm və məsul vəzifələri siyasi hakimiyyətinin birinci 5 ili ərzində həyata keçirərək tamamlamış, müstəqil dövlətimizin dayaqlarını möhkəmləndirməyə nail olmuşdur. Bu mənada siyasi hakimiyyətin birinci beşilliyi İlham Əliyev üçün yeni təməllər yaratmaq və strategiyanı daha da inkişaf etdirmək dövrü olmuşdur.

Prezident İlham Əliyev dövlət idarəetmə siyasətində yeni təfəkkürü təmsil edən novator bir lider kimi hakimiyyətə başladığı andan həm də paralel olaraq ən müasir istiqamətlərdə islahatlara start vermişdir. Dövlət rəhbərinin müəyyən etdiyi yeni istiqamətlər həyatın daxili təbii məntiqinin, ölkə reallıqlarının və mövcud dünya təcrübəsinin nəzərə alınması əsasında formalaşdırıldığı üçün bütün sahələrdə gerçək davamlı inkişafa geniş yol açmışdır.

Dövlət başçısı kimi İlham Əliyevin siyasi hakimiyyətə gəldiyi ilk illərdən başladığı və bizim günlərə qədər uğurla davam etməkdə olan regionların sosial-iqtisadi inkişafı üzrə proqramların həyati zərurətdən doğan və ölkə üçün xüsusi əhəmiyyətə malik bir strategiya kimi həyata keçirilməsi respublikamızda fərqli inkişaf səviyyəsinə gəlib çatmaqda hərəkətverici bir missiyanı yerinə yetirmişdir. Azərbaycan rayonlarında icra edilən genişmiqyaslı infrastruktur layihələri, təsərrüfat proqramları, möhtəşəm sosial-mədəni quruculuq işləri ölkəmizin simasını tamamilə dəyişdirmişdir. Regionlarda aqrar sektorla yerli sənayeləşmənin birinin-digərini tamamlaması, əhalinin ərzaq tələbatının ödənilməsi ilə yanaşı, həm də xammal və emal proseslərinin iqtisadi cəhətdən daha səmərəli şəkildə tənzimlənməsi ölkədə hərtərəfli və ahəngdar inkişafın təmin edilməsini gerçəkləşdirmişdir.

Bu gün nəinki Müstəqil Dövlətlər Birliyi ölkələri miqyasında, hətta əksər Avropa dövlətlərində Azərbaycandakı səviyyədə regionların inkişafını müşahidə etmək çətindir. İndi Azərbaycanın bütün rayonları xalqımız üçün yaşayıb-yaratmalı, qurub-tikməli, rahat və firavan şəkildə ömür sürməli bir məkana çevrilmişdir. İlk növbədə, rayonların təsərrüfat imkanları genişlənmiş və bazara çıxarılan məhsulların həcmi və keyfiyyəti artmışdır. Hazırda aparılan məqsədyönlü dövlət siyasəti sayəsində Azərbaycanın regionları da paytaxt miqyasında böyük ixrac imkanlarına malik münbit bir bazar funksiyasını daşımaqdadır. Yaxud, Azərbaycanın regionlarında tikilən məktəb və ya xəstəxana binaları ilə Bakı şəhərindəki təhsil və tibb müəssisələri arasında ciddi bir fərq yoxdur. Respublikamızın paytaxtı Bakı şəhərini regionlarla əlaqələndirən və dünyaya açılan avtomobil yolları yüksək dünya standartı səviyyəsindədir.

Son illərdə Prezident İlham Əliyevin irəli sürdüyü irimiqyaslı kənd təsərrüfatı proqramları-- çayçılıq, pambıqçılıq, çəltikçilik, ipəkçilik, tütünçülük layihələri və həmin proqramların həyata keçirilməsi sahəsində əldə olunan mühüm iqtisadi nəticələr Azərbaycanın regionlarına yeni həyat gətirmişdir. Rayon mərkəzləri və kəndlərimiz tanınmaz olmuşdur. Bütün bunların fonunda müasir dövrdə Azərbaycan regionunun canlı, dinamik inkişaf səviyyəsi bütün böyük ritmləri ilə qabarıq şəkildə nəzərə çarpmaqdadır. Əhatə etdiyi böyük miqyasa və mühüm iqtisadi əhəmiyyətinə görə uğurla həyata keçirilməkdə olan regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarını "Prezident İlham Əliyevin özünəməxsus QOELRO planı" adlandırmaq olar. Bu, regional inkişafda yeni tipli dövlət başçısı İlham Əliyevin fəth etdiyi zirvədir.

Müstəqillik dövründə nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi sahəsində də ölkəmiz çox böyük uğurlara imza atmışdır. Bakı şəhərində inşa edilən möhtəşəm körpülər, yeraltı keçidlər və dayanacaqlar meqapolis miqyaslı paytaxtda nəqliyyat infrastrukturunun tamamilə yenidən qurulması ilə nəticələnmişdir. Azərbaycanın coğrafiyasının bütün çıxış nöqtələrinə doğru çəkilən yeni yollar mükəmməl nəqletmə səviyyəsindədir. Ölkəmizin bütün regionlarını əhatə edən genişzolaqlı avtomobil yolları həm də respublikamızı iqtisadi və mədəni cəhətdən inkişaf etdirən at gücü funksiyasını daşıyır.

Dövlət başçısı İlham Əliyevin adı və yorulmaz fəaliyyəti ilə birbaşa bağlı olan Bakı-Tbilisi-Qars dəmir yolu Avropa ilə Asiyanı birləşdirən nəhəng nəqliyyat qovşağıdır. Bakı-Tbilisi-Qars marşrutu beynəlxalq miqyasda Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində meydana çıxmış "Dəmir İpək yolu" kimi qəbul olunur. Bu, tarixi İpək yolu marşrutuna müstəqil Azərbaycan Respublikasının möhtəşəm əlavəsidir. Bakı-Tbilisi-Qars dəmir İpək yolunun Türkiyə Cümhuriyyətinin Qars şəhərindən Azərbaycan Respublikasının tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasına qədər uzadılması ilə bu böyük magistral İran İslam Respublikasının dəmir yollarına qoşularaq ətrafdakı Asiya ölkələrini də əhatə edə biləcəkdir. Beləliklə, Avrasiya ölkələrinə yeni bir mühüm strateji marşrut açılacaqdır.

Azərbaycana sürət qatarı anlayışını da Prezident İlham Əliyev gətirmişdir. Sürətli qatar, sadəcə, yeni tipli dəmir yolu olmaqla qalmayıb, həm də Azərbaycanın bütün istiqamətlər üzrə sürətli inkişafının böyük paroludur. Bakı-Tbilisi-Qars dəmir İpək yolunu Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizləri böyük müvəffəqiyyətlə davam və inkişaf etdirir, şaxələndirir. Bu gün Azərbaycan beynəlxalq tranzit yollarının

qovşağı olan inkişaf etmiş ölkə missiyasını həyata keçirir. Böyük magistral yollar özünün arxasınca ölkəmizdə güclü iqtisadiyyata geniş yol açmaqla bərabər, turizmin, elmin və mədəniyyətin inkişafı üçün də müstəsna imkanlar yaradır.

Bütün bunlar isə dünyada qəbul olunmuş yeni İntibah mərhələsinin ən mühüm şərtlərindən birinin, tranzit ölkəyə çevrilməyin Azərbaycanda ən sərfəli və əlverişli şəkildə həyata keçirilməsi deməkdir. Hava nəqliyyatında və gəmiçilik sahəsində tikilən aeroportlar, salınan limanlar, istifadəyə verilən gəmiqayırma zavodları, bu zəmində Ələt İqtisadi Zonasının yaradılması respublikamızın daha sürətli inkişafına təkan verir. Beləliklə, artıq Azərbaycan beynəlxalq nəqliyyat bazarını fəth etmiş ölkə statusu qazanmışdır. Bu da Prezident İlham Əliyevin Azərbaycan Respublikasına qazandırdığı mühüm bir Zirvədir.

Müstəqil Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi və Prezident İlham Əliyevin dünyanın bir nömrəli beynəlxalq təşkilatının iclaslarına rəsmi olaraq sədrlik etməsi və həmin mötəbər kürsüdən planet miqyasında çağırışlar səsləndirməsi müstəqil dövlətimiz üçün möhtəşəm zirvədir! Bu zirvəni yalnız görkəmli dövlət xadimi Heydər Əliyevin dövrünün ən böyük supergüclərindən biri olan SSRİ-də Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü səviyyəsinə qalxması ilə müqayisə etmək olar. Azərbaycan Respublikasını Siyasi Büro səviyyəsindən Birləşmiş Millətlər Təşkilatı mərtəbəsinə çıxarmaq etibarlı siyasi varisliklə güclü müasirlik ruhunun qarşılıqlı əlaqəsi və vəhdəti sayəsində mümkün ola bilmişdir.

Son illərdə Azərbaycan Respublikasının beynəlxalq miqyasda xüsusi çəkisi olan Avropa Birliyi Nazirlər Şurasına və Qoşulmama Hərəkatına sədrlik etmək səlahiyyəti qazanması çoxəsrlik Azərbaycan tarixinin yeni mərhələdəki nadir hadisələridir. Müstəqillik qazanmış yeni dünya dövlətləri arasında belə yüksək etimad səviyyəsinə qalxa bilmiş digər ölkələr göstərmək çətindir. Bu yüksək zirvələrin qazanılmasında iki mühüm amil-- Azərbaycan Respublikasının inkişafı və Prezident İlham Əliyevin şəxsi keyfiyyətləri mühüm rol oynamışdır.

Azərbaycan Respublikasının iqtisadi-mədəni cəhətdən əldə etdiyi böyük nailiyyətlər və müstəqil dövlətin sükanı başında möhkəm dayanmış Prezident İlham Əliyevin liderlik məharəti beynəlxalq təşkilatların heç də həmişə birmənalı olmayan meyarlarını aşmaqla əsas şərtlərdən biri olmuşdur. Üstəgəl, dövlət başçımızın möhkəm siyasi iradəsi ilə yanaşı, geniş analitik təfəkkürü, qeyri-adi natiqlik məharəti, xarici dillərə dərindən bələdliyi də əsas faktorlar sırasında Azərbaycana böyük nüfuz gətirmişdir.

Bundan başqa, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı ölkələrinin gənc nəslinə müstəqil Azərbaycan dövlətinin qrantı hesabına respublikamızda ali təhsil almaq imkanlarının açılması inkişafımızın yeni tarixi mərhələsinin mühüm göstəricilərindəndir. Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun, Gənclər Fondunun və Dövlət Neft Şirkətinin də qrantları hesabına xarici ölkələrdə müştərək layihələrin həyata keçirilməsi inkişafın İlham Əliyev mərhələsinin reallıqlarındandır.

Bu həm də gənc Azərbaycan Respublikasının qısa müddət ərzində yardım alan ölkədən qrant verən, donor ölkəyə çevrilməsi deməkdir. Bu cəhətdən müstəqil Azərbaycan Respublikası hazırkı mərhələdə Cənubi Koreya, Malayziya, Sinqapur kimi yeni dünya divləri sırasına doğru inamla yol gedən ölkə imici qazanmaqdadır.

Cəmi bir il ərzində-- 2018-ci ildə NATO və Avropa Şurası kimi iki nəhəng beynəlxalq təşkilatın, nəhayət ki, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində həll edilməsi haqqında qərarlar qəbul etmələri Prezident İlham Əliyevin apardığı məqsədyönlü və ardıcıl xarici siyasətin gəlib çatdığı mühüm nöqtədir. Bütün bunlar ölkə başçısı İlham Əliyevin rəhbərliyi ilə beynəlxalq aləmdə, xarici siyasətdə hansı yüksək zirvədə dayandığını parlaq şəkildə nümayiş etdirir.

Azərbaycan--Türkiyə Birliyi və qardaşlığı: "Bir millət-- iki dövlət"in birgə hərbi paradı--bu da bir Zirvə! Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması və uğurlu fəaliyyəti yeni bir Zirvə!

Ölkədə yaradıcı ziyalılığın, elm və təhsilin inkişaf etdirilməsinə xüsusi qayğı göstərmək ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci mərhələsindən etibarən əsası qoyulmuş dövlət əhəmiyyətli strategiyadır. Prezident İlham Əliyev üçün də elmin və təhsilin, ədəbiyyatın və incəsənətin inkişaf etdirilməsi prioritet istiqamətlərdən biridir. Möhtərəm Prezident üçün Azərbaycan elmi ölkənin inkişafına və xalqın sosial rifahının daha da yaxşılaşdırılmasına xidmət göstərən bir sahəyə çevrilmişdir.

Azərbaycan Milli Elmlər Akademiyasında həyata keçirilən islahatlar ölkəmizdə fundamental tədqiqatların inkişaf etdirilməsi ilə bir sırada, həm də elmi fəaliyyət sahəsində innovasiyaların tətbiq olunmasına, sahibkarlıq mühitinin inkişafına meydan açmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xüsusi sərəncamı ilə Milli Elmlər Akademiyasında yeni yaradılmış Yüksək Texnologiyalar Parkı və ona bağlı olan Təcrübə Sənaye Zavodu elmi mühitlə istehsalatın, bazar münasibətlərinin qarşılıqlı əlaqələrinin formalaşdırılmasına geniş imkanlar açır.

Yüksək Texnologiyalar Parkı həm də AMEA-nın alimləri və gənc mütəxəssisləri üçün elmin istehsalatda tətbiq edilməsi üçün əhəmiyyətli bir platformadır. Əslində bu, ölkəmizdə müstəqillik dövrünün yeni tipli Elmlər Akademiyasını yaratmaq deməkdir. Bu istiqamətdə aparılan genişmiqyaslı tədbirlərin

həyata keçirilməsi əsasında Bakı şəhərinin Zığ şosesi ərazisində salınmış müasir tipli yeni Akademiya Şəhərciyi XXI əsrin fərqli Milli Elmlər Akademiyasının ilkin modelidir.

Milli Elmlər Akademiyasının müdafiə sənayesi istiqamətində hərbi təyinatlı məhsullar istehsal etməsi Azərbaycanda akademiya anlayışının yenidən qurulmaqda olmasından xəbər verir. Azərbaycan Respublikasının Milli Məclisində Elm və təhsil komitəsinin hazırladığı "Elm haqqında" qanunun 2015-ci ildə qəbul olunması və AMEA-da müstəqillik dövrünün birinci nizamnaməsinin hazırlanıb təsdiq edilməsi, fəaliyyət mexanizmlərinin işə salınması ölkədə elmi yeni inkişaf müstəvisinə çıxarmağa geniş üfüqlər açır.

Uzun illər əsasən fundamental tədqiqatlarla məşğul olan Milli Elmlər Akademiyasında indiki mərhələdə sənayeləşmə, innovasiya və sahibkarlıq sahələrinin ön mövqeyə çıxarılması faktiki olaraq yeni akademiya qurmaq deməkdir. Elm sahəsində baş vermiş bu yeniləşmə Prezident İlham Əliyevin elm siyasətinin mühüm nəticəsidir.

Azərbaycan Respublikasında təhsil, mədəniyyət, səhiyyə, idman istiqamətlərinin inkişafına da Prezident İlham Əliyev öz möhürünü vurmuşdur. Diqqətlə fikir versək, görərik ki, Azərbaycan artıq ali məktəblər ölkəsinə çevrilmişdir. Paytaxtımız Bakı şəhərində yerləşən universitetlərlə ölkəmizin regionlarında fəaliyyət göstərən ali məktəblər nə maddi-texniki bazasına, nə də elmi-pedaqoji potensiallarına görə əsaslı şəkildə fərqlənir. Naxçıvan Dövlət Universitetinin müasir inkişafı dünyanın ən yaxşı universitetləri ilə müqayisə oluna bilər. ADA Universiteti yeni tipli universitet quruculuğuna örnəkdir. Ali Neft Məktəbi müstəqil dövlətin neft strategiyasını həyata keçirə biləcək yüksəkixtisaslı mütəxəssislər hazırlayan müasir tipli ali təhsil ocağıdır.

Bakı Dövlət Universiteti, İqtisad Universiteti, Mədəniyyət və İncəsənət Universiteti, Dillər Universiteti, Pedaqoji Universitet, Slavyan Universiteti və başqa ali təhsil müəssisələri qısa müddət ərzində yeniləşmənin və müasirləşmənin nümunəsini göstərmişdir. Xəzər Universiteti dövlət və özəl ali məktəblərin rəqabət mühitində tarazlığı qoruyub saxlamaq imkanları ilə ağırlıq təşkil edən ali məktəb statusunu məsuliyyətlə yerinə yetirir. Ali təhsil sahəsində baş verən bu yeniləşmə hərəkatı nəticə etibarilə təhsilin digər mərhələlərində də müasirləşməyə özünün müsbət təsirini göstərir.

İlham Əliyevin müstəqil dövlətçilik təlimi əsasında meydana çıxmış "Təhsil haqqında" (2009), "Məktəbəqədər təhsil haqqında" (2017), "Peşə təhsili haqqında" (2018), "Ümimi təhsil haqqında" (2019) qanunlar ölkəmizdə təhsilin bütün mərhələləri üzrə dövlət siyasətinin uğurla həyata keçirilməsinə xidmət edir. Yeni təhsil mühiti və yeniləşmiş Azərbaycan təhsili xalqımızı və ölkəmizi bütün yönləri ilə irəli aparmaq missiyasını müvəffəqiyyətlə həyata keçirir. Son 16 ildə Azərbaycanda 3 mindən çox məktəbin tikilməsi və ya əsaslı şəkildə yenidən qurulması, müasir texnologiya ilə təchiz olunması inqilabi nailiyyət, Azərbaycan təhsilində yeni zirvədir.

Prezident İlham Əliyev Azərbaycan elminin inkişafı üçün yeni üfüqlər açmışdır. Planetin riyaziyyat mogikanı Lütfi Zadə Azərbaycan elminə dünya şöhrəti qazandırmışdır. Modern düşüncəli İlham Əliyevin siyasi-diplomatik erası isə milli elm və mədəniyyətimizi yeni mərhələyə çıxarmışdır. Dünya şöhrətli Xalq rəssamı Tahir Salahovun böyük sənətdə Zirvəyə çevrilməsi, Xalq artisti Müslüm Moqamayevin, Xalq rəssamı Ömər Eldarovun incəsənət sahəsində zirvələr fəth etmələri Azərbaycan dövlətinin və xalqının çağdaş dünyada böyük uğurudur.

Azərbaycan Respublikasının Qərb ölkələrindən qabaq yüksək səviyyədə və çox mütəşəkkil şəkildə Avropa Oyunları keçirməsi, idmançılarımızın böyük uğurlar qazanması idman sahəsində qazanılan zirvələrdir. IV İslam Həmrəyliyi Oyunlarına evsahibliyi etmək və idmanın əsas növləri üzrə dünya çempionu adı qazanmaq, bütün ölkələrdən çox qızıl medal sahibi olmaq da zirvələrdən biridir. Bu gün Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Qars kimi layihələrin gerçəkləşməsi ilə, bütövlükdə, Azərbaycan XXI əsrin zirvəsində dayanır.

Nəhayət, Azərbaycan Ordusunun 2016-cı ilin Aprel döyüşlərindəki böyük qələbəsi, Əlahiddə Azərbaycan Ordusunun 2018-ci ilin uğurlu döyüş əməliyyatları nəticəsində Naxçıvan Muxtar Respublikasındakı 11 min hektarlıq ərazini işğaldan azad etməsi və Ermənistan üçün strateji əhəmiyyətə malik olan İrəvan-Laçın magistral yoluna nəzarəti ələ keçirməsi yeni tarixi epoxanın çox mühüm hərbi-siyasi uğurudur. Azərbaycan əsgərinin düşmən sərhədində yerləşən, dəniz səviyyəsindən 1800 metrlik yüksəkliyə malik olan Şərur rayonu ərazisindəki Qızılqayanın ən uca nöqtəsinə Azərbaycan bayrağını taxması hərb tariximizin böyük hadisəsidir.

Cəbrayıl rayonunun işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndində yenidən insanların məskən salması, Naxçıvan Muxtar Respublikasındakı Günnüt kəndinin düşmən tapdağından xilas edilməsi Dağlıq Qarabağın sabahına nikbin baxmağa əsas verir. Bu real hadisələr bir daha göstərir ki, hansı yolla olur-olsun Azərbaycan dövlətinin işğal edilmiş ərazilərini geri qaytaracağı, məcburi köçkünlərin doğma torpaqlarına qayıdacağı gün çox da uzaqda deyildir.

Prezident İlham Əliyevin böyük məsuliyyət və məharətlə apardığı hərb və sülh siyasətinin real nəticələri Azərbaycanın haqq işinin, ədalətli mübarizəsinin qalib gələcəyinə böyük ümid yaradır. Azərbaycan

xalqı möhkəm inanır ki, Dağlıq Qarabağ münaqişəsi məhz Prezident İlham Əliyevin rəhbərliyi ilə qələbə ilə başa çatdırılacaqdır.

Nəhayət, Heydər Əliyev-- İlham Əliyev epoxası çoxəsrlik Azərbaycan tarixində möhtəşəm Zirvədir. İlham Əliyev erası tarixə zirvələr epoxası kimi yazılmaqda davam edir. Müstəqil Azərbaycan Respublikası müasir inkişafın İlham Əliyev zirvələri dövrünü yaşayır. Dünya liderləri sırasında özünəməxsus yeri və mövqeyi olan görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqımızı və ölkəmizi böyük bacarıqla, qətiyyətlə, uzaqgörənliklə Zirvədən Zirvəyə və Qələbədən Qələbəyə doğru aparmaqda davam edir. Bu gün Azərbaycan dünyanın Qafqazdan ucalan yeni bir zirvəsi kimi görünür.

Azərbaycan xalqı inanır ki, Prezident İlham Əliyevin komandanlığı ilə fəth ediləcək növbəti Zirvə Dağlıq Qarabağ və Şuşa qalası olacaqdır!..

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il aprelin 11-də yenidən ölkəmizin Rəhbəri seçilməsinin bir ili görülən işlərin, həyata keçirilən tədbirlərin, qazanılan nailiyyətlərin miqyasına görə bir neçə illərə bərabər tarixi addımdır. Müstəqil Azərbaycan dövlətini və xalqımızı Prezident İlham Əliyevin rəhbərliyi ilə daha neçə-neçə uğurlu illər, möhtəşəm zirvələr, işıqlı sabahlar gözləyir.